

**RƏVAN KABİDOLDİN**
**(RAUAN ERJAN OĞLU KABİDOLDİN)** – *1989-cu ildə Doğu Qazaxıstan vilayətinin Katon-Karağay rayonunun Şınğıstay kəndində doğulub. E.A.Böketov adına Karaqanda Dövlət Universitetini bitirib.*

*Uluslararası "Şabıt" şeir yarışmasının və başqa şeir yarışmalarının ödülünü qazanıb, habelə "Darın" Dövlət Gənclər Ödülünə layiq görülüb (2007).*

## *CANIM NƏNƏ*

Canım nənə, əfv eylə nəvəni sən,
Səndən artıq sevmədim şeirləri.
Qayadan aşağı sürüşdükcə mən,
Buludlardan seyr elədim yerləri.

Canım nənəm, buludlar da kiçildi,
Rəngi soyuq içi də çox qorxulu.
Yatarkən yuxuma dağlar girəcək.
Madyanı çapacam yarıyuxulu.

Bədənim – odtutur, içim – nəğməkar,
Bunu kimsə bilməz, sən anlayardın.
Yatarkən yuxuma dağlar girəcək
Madyanı yenilməz bir dağ sayardım.

Canım nənə, əfv eylə nəvəni sən,
Səndən artıq sevmişəm mən nəğməni.
Bir sabah ah çəkib tərk eyləmişəm,
Ovcuna alacaq olan ölkəni...

## *SƏNİN ŞƏKLİN*

Niyə özümə zülm edim,
Cənnətdəyəm – içi bəyaz.
Doğum günündə verdiyim,
"Ayı"ya sarıldım bir az.

Önümdə oturmusan,
Mələk üzlü simanla.
Səssizcə göz dikmişəm,
Busə istərəm, anla.

Dodaq üzə toxunanda
Qəlbim köksümə sığmayır.
Məsum gülüşün olmasa
Günəş də üzə çıxmayır.

Hər şeyi yaxşı bilirəm,
Bilməməyə haqqım da yox.
Bu soluxan halı görsən,
Şair olardın daha çox.

**(Gülnar SƏMA (QASIMLI) *çevirib*)**